OFELYA SALMANOVA
*Azərbaycan Dövlət İqtisad Universiteti, t.e.n.*

# GƏNCƏ TARİXİNƏ DAİR ERMƏNİ SAXTAKARLIĞI

Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biri, ulu tarixə malik şəhərlər diyarıdır. Həmin şəhərlərdən biri də vaxtilə ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi olmuş Gəncədir. Gəncə orta əsrlərdə təkcə Azərbaycanın deyil Yaxın və Orta şərqin məşhur şəhərlərindən biri olmuşdur.

Gəncənin tarixi Azərbaycan tarixçiləri və arxeoloqları tərəfindən tədqiq edilmiş, maraqlı əsərlər çap edilmişdir. Demək olar ki, bu əsərlər Gəncə tarixini obyektiv şəkildə əks etdirir. Lakin siyasi təbliğat marağı baxımından yanaşan erməni təbliğatçıları müəyyən məqamlarından istifadə edərək Azərbaycanın qədim, zəngin tarixə malik ulu diyarları – Qarabağ, naxçıvan, gəncə və d. bölgələrinə dair uydurma «əsərlər» çap etdirməklə tarixi saxtalaşdırmaqda davam edirlər.

Uydurma «Böyük Ermənistan» xülyası ilə yaşayan erməni tədqiqatçıları tarixi saxtalaşdırır və bu çirkin əməllərindən əl çəkmirlər. Qarabağ və digər bölgələrə dair uydurma «tarix» yazan, karapetyanlar Gəncə bölgəsini də «elmi axtarış» hədəfinə götürmüşlər.(1) Yazdıqları, erməniliyə məxsus «tədqiqatlarda» Azərbaycanın qədim tarixə və zəngin ənənəyə malik olan ərazilərinin tarix və mədəniyyət abidələri hədəfə götürür, üzərində «elmi eksperiment» aparırlar. Güya Gəncənin və Şimali Arsakın sirləri (?) açıqlanır. Həmin «tədqiqatlarında»da «öz ənənələri»nə sadiq saxtakar əməllərini burada da «sınaqdan keçirmək» fikrindədirlər.

Gəncə şəhərinin əsasının IX əsrdə (836-cı ildə) erməni Arşakaşen nahiyəsində qoyulması, Gəncənin əhalisinin orta əsrlərdə farslar və ermənilərdən ibarət olması kimi cəfəngiyatları qələmə almaq həqiqətdən və elmi düşüncədən çox uzaqdır.

Gəncə şəhərinin əsasının güya bərdədə dağılmış erməni kəndlərindən gələn evsiz-eşiksiz farslar və ermənilər tərəfindən qoyulmuşdur deməklə Gəncə və qarabağ bölgələrinin etnik tərkibi məsələlərinə də mənəvi zərbə vururlar. Bu cür uydurmalarla dolu kitabların müəllifləri öz sələflərinin saxta tarixi «faktlarına» istinad edərək qondarma fikirlərini sübut etməyə çalışırlar. Y.Manandyanın ərəb mənbələrinə istinadən yazdığı «Məhəmməd ibn Həmid 844-cü ildə Gəncə şəhərinin əsasını qoydu və ona Diyarbəkirdən ərəbləri köçürdü» fikrini əsas götürərək bu şəhərin «Atropatena Gəncəsindən fərqləndirmək üçün erməni(?), yaxud Arran Cəncəsi adlandırıldı»ğını bildirirlər.

Erməni müəllifləri Araz və Kür arasının qədim dövrdən Arran adlandırıldığını qeyd edərək Əhməd Kəsrəvinin vaxtilə ifadə etdiyi yanlış fikrə əsaslanaraq bu adı «Ar» sözündən, ari kökündən əmələ gəlmiş hesab edirlər. Əhməd Kəsrəvinin ortaya atdığı bu fikirin başqa bir İran tədqiqatçısı-linqvisti Dərxodanın da təsdiq etdiyini vurğulamaqla «etibarlı» mənbələrə əsaslandırdıqlarını bildirmək istəyirlər. Eləcə də ərəb xronisti Daməşxinin «Boxdaxodaxır» kitabında «Sasani şahı Qubad və Xosrov Anuşirvanın göstərişi ilə Arranda üç şəhər yaradıldığını bildirir, onun Arran Erməniyyədədir (?) fikrinə istinad edərək Gəncənin yerləşdiyi əraziləri erməni torpaqları kimi təsvir etməyə səy göstərirlər. Maraqlıdır ki, erməni təbliğatçıları özlərinin siyasi mənafelərinə uyğun gələn bu fikri əsaslandırmaq üçün Tehranda 1993-cü ildə fars dilində nəşr olunmuş «Dexxoda loxatnamə» kitabına istinad edirlər. Bir az da qədimə gedərək Moisey Xorenliyə istinadən çar Vaqarşakın Kür sahili ərazilərdə yerləşən Arrana hökmdar təyin edilməsindən, Arranın əhalisindən bəhs edir və bildirirlər ki, uti tayfası, Girdman knyazlığı əhalisi, savdeylər, qarqarlar onların (ermənilərin) əcdadlarıdır.

«Böyük Ermənistan» xəstəliyinə tutulmuş erməni millətçiləri Gəncənin tarixən ermənilərə məxsus olmasına Dünya ictimaiyyətini inandırmağa çalışırlar. Onlar ciddi tarixçilərin qarqarların qədim türk tayfalarından biri olması barədə məlumata heç bir şübhə olmadığı, adı çəkilən tayfaların yerli Qafqaz etnik qrupuna aid olmaları çoxdan məlum olduğu halda bu məsələni dəfələrlə qaldırmaqla öz uydurmalarını sübut etməyə çalışırlar.

Erməni və rus dillərində yazılan və erməni lobbisinin maliyyə yardımı hesabına müxtəlif dillərə tərcümə edilərək yayılan cild-cild kitablardan bir məqsəd güdülür: yalanı doğru kimi qəbul etdirmək, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını əldə saxlamaq üçün işğala hüquqi don geydirmək. Təəccüblü budur ki, bu yalanları gerçək kimi qələmə vermək üçün vaxtilə gizli şəkildə fəaliyyət göstərən qriqoryan kilsəsi, erməni milli təşkilatları və erməni diasporu indi açıq-aşkar şəkildə və geniş formada fəaliyyət göstərirlər. Saxta, yalan və böhtan dolu kitabları çoxaltmaq, yaymaq üçün heç nəyi əsirgəmirlər.

Bəzi erməni tarixçilərinin bu günkü fəaliyyəti daimi torpağı və dövlətçilik ənənəsi olmayan ermənilərə Qafqazda qədim tarix və mədəniyyət beşiyi yaratmağa yönəlmişdir. Buna görə də belə erməni «tədqiqatçıları» tarixi mənbələri belə saxtalaşdırırlar.

Bütün bunlar ermənilərin Azərbaycana qarşı ərazi iddialarının tarixi-siyasi istiqamətdə davam edərək gətirib XX əsrin sonlarında hərbi münaqişə müstəvisinə çıxarmışdır. Ermənistanın planlı şəkildə başladığı ərazi iddiaları, münaqişə və müharibə Azərbaycanın 20 faiz ərazisinin işğalı ilə nəticələnmişdir. Beynəlxalq aləmə «soyqırıma məruz qalmış xalq» uydurması yaradan erməni millətçiləri əsrin ən böyük faciəsini – Xocalı soyqırımını törətdilər. Erməni vandalları ulu əcdadlarımızın tarixi yaddaş rəmzi olan məşhur Xocalı qəbiristanlığını dağıtdılar. Azərbaycanın Yuxarı Qarabağ bölgəsində xalqımıza məxsus qədim tarix və mədəniyyət abidələrini məhv etdilər.(2)

Belə kitab müəllifləri son orta əsrlərə qədər ermənilərin (?) knyaz evi olan Arsak və Utidə özlərini Aranşahilər (başqa sözlə Arran nəsli) adlandırdıqdarını bildirməklə tarixi həqiqətə kölgə salırlar. Onların yazdığına görə güya Arran coğrafi ad kimi uzun müddət özünü Metsarank (indiki Mardakert rayonunda)və Utidəki arranrot (indiki Ağdam rayonu) adında saxlamışdır. Bu cəfəngiyatın tarixi həqiqətdən və elmdən uzaq olduğunu şərh etməyə ehtiyac yoxdur. Hansı ki, qaynaqlarda və tədqiqat əsərlərində utilərin, savdeylərin, qarqarların və digər alban-türk tayfalarının Gəncə də daxil olduğu Arranın qədim yerli sakinləri olması, türk sakların Azərbaycan ərazisinə e.ə. VIII-VII əsrdə gəlməsi və Kür-Araz ovalığına yayılması, Böyük Qafqaz dağlarına qədər böyük bir ərazini tutması barədə məlumat verilir.(3)

Vaxtilə Strabonun «Coğrafiya» əsərində edilmiş saxtakarlıqdan bəhrələnməyi davam etdirən erməni təbliğatçılarının fikrincə guya 832-ci ildə Xazranın oğlu Padqos Ağvan ölkəsinə gəlib kilsələri dağıtdıqdan sonra Arşakaşen qəzasında Gəncə şəhərini tikdirilməsinə fərman vermişdir. (836-cı il) Bu müəlliflər «Kür çayının erməni torpaqlarından» vaxtilə axdığını sübut etməyə çalışırlar. Strabona istinad edərək Midiyada Matyananın, Armeniyada Sakasena və Araksenanın olmasını sübut etmək üçün yerli-yersiz ixtibas gətirirlər. Sakasenanın erməni mənbələrində Arşakaşen (Şakaşen, şikaşen) kimi xatırlandığını qeyd edirlər. Baxmayaraq ki, həmin mənbələrdə «ar», «ər» ilə başlanan sözlərin türk dili mənşəli söz olduğu dünya alimlərinin çoxu tərəfindən təsdiq edilmişdir və heç bir əlavə sübuta ehtiyacı olmayan bir istilahdır. Şərqşünas N.Adonts və İ.Markvart və d. bu barədə olduqca dəyərli fikirləri məlumdur. Rus müəllifi A.Xazanov təsdiq edirdi ki, «Qarabağ əyalətlərindən biri olan Arsak öz adını sakların «cəsarətli» və «kişi» sözündən götürülmüşdür».(4, s.29)

Sakların isə ermənilər və onların tərəfdaşları qəbul etsələr də etməsələr də qədim türk etnoslarından biri olduğu ciddi alimlər tərəfindən təsdiq edilmişdir. (5) Stepan Orbelyan (XIII əsr) bildirir ki, «sisaklar təkcə syuninin deyil, həm də albanların əcdadlarıdır, hətta onlara nisbətən daha qədimdir.»(6)

Erməni təbliğatçıları «xarici müəlliflərin qədim dövrdən başlayaraq bu ərazidə erməni dövlətçiliyinin olmadığını və erməni xalqının formalaşmasını xarici elementlərlə, Fraksiyadan gəlmə tayfalarla əlaqələndirməsi»ni tənqid edir və bu fikrin əksini sübut etməyə səy göstərirlər. Bu zaman ermənilərin Gəncə ərazisində alloxtonluğu kimi qeyri elmi məlumatlar yer alır. Hansı ki, onların əcdadlarının vaxtilə uzaq Balkanlardakı Frakiyadan gəlməsinin əlavə sübuta ehtiyacı yoxdur. Moisey Xorenli yazır ki, «biz (yəni haylar) kiçik, azsaylı, zəif və çox hallarda özgələrinin hakimiyyəti altında yaşayan xalqıq.»(7)

Antik dövr və ilk orta əsrlər tarixindən bəhs edən bu müəlliflər ermənilərə heç bir aidiyyəti olmayan, daş dövründən son zamanlara qədər intensiv yaşayış məskəni olmuş sözü gedən ərazilərdə qədim azərbaycanlı-türk etno-mədəni qrupun dövlətçilik ənənələri yaratması və inkişaf etməsini müxtəlif şəkillərdə inkar edirlər. Ancaq unudurlar ki, yazılı mənbələr, tarix və mədəniyyət abidələri, həmçinin arxeoloji və numizmatik materiallar bunu birmənalı şəkildə təsdiq edir.(8) Ancaq erməni müəllifləri Gəncə ərazisindəki alban xristian abidələrinin tarixini saxtalaşdıraraq tarixi həqiqətləri bilərəkdən təhrif edirlər. Gəncədə mövcud olan xristian abidələrinin ermənilərə deyil, albanlara məxsus olduğuna dair tədqiqatları bilməməzliyə vururlar.

Ermənilərin bu gün müxtəlif istiqamətlərdə apardığı antiazərbaycan siyasətinə Azərbaycan Respublikasına məxsus ərazilərdə «tarixi araşdırmalar aparmaq» siyasətini də əlavə etməsi işğala bəraət qazandırmaq planının davamıdır. Onların məqsədi Azərbaycanın qədim və zəngin tarixə malik bölgəsinin tarixi ənənələrini və mədəniyyətini erməni tarixi və mədəniyyəti kimi təqdim etməklə Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmaqdır.

### ƏDƏBİYYAT:

1.Карапетян Б., карапетян С. Тайны Ганзака (Кировабада) и Северного Арцаха. М.,1998. 146 с.; См. исторические факты о деяниях армян на Азербайджанской земле. Б.,2003
2.Qarabağ: suallar və faktlar. B.,2004
3.Qumilyov L.İ. Qədim türklər. B.,1993; Алиев И.Г.О Скифах и Скифском царстве в Азербайджане. Переднеазиатский сборник, т.ЫВ, М., 1979, с. 234-255; Юсифов Ю.Б. Киммеры, скифы и саки в древнем Азербайджане. Кавказо-Ближневосточный сборник, т.8, Тбилиси, 1988, с.181-188; Məhərrəm Bayar.Altı min illik türk yurdu – Qarabağ.(çevirən M.Talıblı), Xəzər jurnalı, 1991, № 1, s.135-140
4.Хазанов А. Социальная история скифов. М.,1985
5.Адонц Н. Армения в эпоху Юстиниана. М., 1968
6. Степанос Орбелия. Из истории Сисакан. Научный архив Институт истории НАН Азербайджана. Инв.№1274; Абегян М. История армянской литературы. Ереван, 1975
7.История Армении Моисея Хоренского. М., 1893, с.4
8. Раджабли А.М. Нумизматика Азербайджана. Б., 1997, гл.1

**О.Ф.САЛМАНОВА**
***к.и.н.***
***Азербайджанский Государственный Экономический Университет***

## ФАЛЬСИФИКАЦИЯ ИСТОРИИ ГЯНДЖИ АРМЯНАМИ

И сегодня приплетение армянами политики «исследования истории» на принадлежащих Азербайджанской Республике территориях к проводимой в различных направлениях антиазербайджанской политике является продолжением плана оправдания своей агрессии.

Целью их является создание на территории Азербайджана второго армянского государства путем представления в качестве армянских исторических традиций и культуру обладающей древней и богатой историей области.

**O.F.SALMANOVA**
***Azerbaijan State Economy University***

## FALSIFICATION OF HISTORY GANDJA BY ARMENIAN

And today entanglement by armenian policy of investigation of history on beloning to Azerbaijan republic territory to conduction in different direction of antiazerbaijan policy are continue plan of agression.

Their aim are creating on territory Azerbaijan second armenian government by presents in capasify armenian history tradition an culture which have ancient and rich history.

***Rəyçilər: t.e.d.V.Həsənov, t.e.d.Q.Ə.Əliyev.***
***İqtisad Universitetinin Azərbaycan tarixi kafedrasının 27 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***